*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 279-283*

https://doi.org/10.62837/2025.1.279

**İRADƏ İSRAFIL QIZI KƏRIMOVA**
**BDU,**
***filologiya üzrə fəlsəfə doktoru***

## SOSİAL MEDİADA ƏDƏBİ DİL NORMALARININ POZULMASI (ORFOQRAFİK SƏHVLƏR)

**Açar sözlər:** Azərbaycan dili, sosial media, virtual məkan, orfoqrafik səhvlər, ədəbi dil normaları, monitorinq.

**Ключевые слова:** Азербайджанский язык, социальные сети, виртуальное пространство, орфографические ошибки, литературные нормы языка, мониторинг.

**Key words:** Azerbaijani language, social networks, virtual space, spelling mistakes, literary norms of language, monitoring.

Ümummilli Lider Heydər Əliyev 2001-ci il 18 iyun tarixində imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərmaninda yazır: “XX yüzillik isə Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur. Həmin dövrdə ana dili kitabları hazırlanmış, dərsliklər buraxılmış, müntəxəbatlar tərtib olunmuşdur. Azərbaycan dilinin səs quruluşuna və qrammatik sisteminə dair kitablar yazılmışdır. Mətbuat ana dili, ədəbi dil uğrunda mübarizənin önündə gedirdi. Ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak edirdilər. Xalq dili xəzinəsinin qapıları "Molla Nəsrəddin" vasitəsilə ədəbi dilin üzünə açılırdı. Bu dövrdə yaranan səhnə sənəti də yeni milli-mədəni şəraitdə ədəbi dilə bədii nitq vasitəsilə öz töhfəsini vermişdir (1,1).

Respublikamızın Prezidenti Cənab İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”-nda ana dilimizin dövlət dili kimi inkişafı və ədəbi dil normalarına əməl olunması üçün ciddi vəzifələr müəyyənləşdirilib (2.1).

Bu vəzifələrin yerinə yetirilməsi, dilimizin saflığının qorunması üçün təkcə dilçi alimlər, ziyalılar deyil, hər bir azərbaycanlı çalışmalıdır. Milli sərvətimiz olan dilimizin təmizliyini qorumaq, onu zənginləşdirərək qayğısına qalmaq hər birimizin vətəndaşlıq borcudur. Dilimizin saflığının qorunması, ədəbi dil normalarına düzgün riayət oiunması social mediada xüsusilə diqqət mərkəzində olmalıdır. Bəs soosial media nədir? “Sosial media - sosial ünsiyyət və paylaşma üçün vasitədir. Sosial media daha əlçatan və veb əsaslı texnologiyalardan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Yeni media vasitələri: elektron informasiya saytları, sosial şəbəkələr, bloqlar, mikro bloqlar, ani ünsiyyət proqramları (msn, skype və s), forum kimi insanların bir-birilə ünsiyyətinə və informasiya mübadiləsinə şərait yaradan sayt və proq-

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 279-283*

ramlar sayəsində internet istifadəçiləri axtardıqları və maraqlandıqları məlumatları əldə etmiş olurlar” (3.1).

Sosial şəbəkələr gündəlik həyatımızın bir hissəsinə çevrilib. Sosial medianın insanlar arasında virtual internet alətləri vasitəsilə sosial ünsiyyət yaratmaq və məlumatları paylaşmaq kimi fəaliyyət göstərməsi hamımıza məlumdur. O, daha əlçatan və veb əsaslı texnologiyaladan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Ana dilimizin əsas problemlərindən biri də sosial məkanda Azərbaycan ədəbi dilinin normalarının gözlənilməsi ilə bağlı məsələlərdir.Hamıya məlumdur ki, bəzi sosial məkanlarda çox ciddi dil pozuntularına yol verilir. Bu məkanlarda ədəbi dilin norma pozuntuları müxtəlif formalarda özünü göstərir: leksik, üslubi və qrammatik norma pozuntularına rast gəlinir. Durğu işarələrindən ya ümumiyyətlə istifadə olunmur, ya da yerində işlənilmir. Bəzən isə ədəbi dilimizin saflığını pozan, etik normalara uyğun olmayan sözlər işlədilir. Sosial şəbəkələrdə bir çox hallarda sözlər saitsiz işlədilir, bəzən tələffüz etdiykləri kimi yazırlar, dialekt, şivə, hətta loru, vulqar, tabu sözlər belə işlədilir, sözlər mənasına görə düzgün verilmir, durğu işarələri nəinki düzgün istifadə edilmir, hətta ümumiyyətlə göstərilmir, buna görə də ədəbi dil normaları kobud şəkildə pozulmuş olur. Belə problemlərə sosial məkanda ünsiyyət zamanı çox tez-tez rast gəlirik desək, yanılmarıq.Əlbəttə, sosial şəbəkələr dilimizi öyrənmək üçün yer deyil, sadəcə, ictimi ünsiyyət məkanıdır, buna baxmayaraq, ədəbi dil normalarının pozulmasına heç kim yol verməməlidir. Sosial şəbəkələrdə hər istifadəçi öz savadına, bilik səviyyəsi, yazı vərdişlərinə uyğun iştirak edir, buna görə də ədəbi dil və onun normalarına uyğun davranmaq üçün münasib yer deyil, deyərək, ədəbi dil normalarını pozmaq və buna vərdiş etmək qətiyyən düzgün deyil. Doğrudur, sosial şəbəkələr sərbəst ünsiyyət yeridir, amma hər kəsin istəyinə uyğun fəaliyyət məkanı deyil. Sosial şəbəkə ictimai ünsiyyət yeri olduğu üçün ictimai nəzakət qaydalarına uyğun anlaşılan nitqlə, ədəbi dilimizin normalarına nəzarət olunan və müəyyən qaydalarla tənzimlənən ünsiyyət məkanı olmalıdır. Belə olduqda dövlət dilimizin, bizi təmsil edən, dünyaya milli kimlik olaraq tanıdan ana dilimizin ehtiramla qarşılanmasına və onun öyrədilməsinə də stimul verər. Çünki ana dilimizin öyrədilməsi, təbliği bizim hər birimizin vətənimiz üçün edə biləcəyimiz kiçik, lakin zəruri bir vətəndaşlıq vəzifəsidir. Sosial mediada bu qədər sərbəstlik dilimizi ağırlaşdırır, saflığına mane olur. Azərbaycan dilini lazımi səviyyədə bilməyən, ədəbi dil normalarına bələd olmayan savadsız insanlar dilimizi korlayır. Bəs sosial məkanda Azərbaycan ədəbi dil normalarının pozulmasının qarşısını necə almaq olar? Bunun üçün nə etmək lazımdır? İnsanların mütaliədən uzaq olaraq sosial məkanlarda daha çox vaxt keçirmələri nitq vərdişlərinin zəifləməsi dil normalarının pozulmasına, savadsızlığa imkan yaradır. Bunun qarşısının alınması üçün hər bir ailə, orta məktəb, ali məktəb övladlarımızın ilk növbədə savadlı olmasına şərait yaratmalıdır. Çünki problem həqiqətən də ciddidir. Azərbaycan ədəbi dil normalarının pozulmasının qarşısını almaq, ədəbi dilin düzgün tətbiqi, ana dilimizin saflığının qorunması və gələcək nəsillərə saf ötürülməsi və Azərbaycan

dilimizin gözəlliyini bütün dünyaya tanıtmaq hamının əsas məqsədi olmalıdır. Məqsədimiz kimləri isə tənqid atəşinə tutmaq deyil, dilimizin saflığına mane olan qüsurları aradan qaldırmaqdır. Sosial şəbəkə istifadəçilərinin əksəriyyətini təbii ki, gənclər təşkil edir. Çoxları bundan istifadə zamanı orfoqrafik qaydalara riayət etmirlər. Əslində gənclərin əksəriyyəti bütün günü sosial şəbəkələrdən istifadə etdikləri üçün artıq məişət üslubunda necə danışırlarsa elə də yazdıqlarını deyirlər. Bəziləri bunu vərdiş, bəziləri isə vaxta qənaət kimi dəyərləndirir. Sosial şəbəkə həyatımızın bir hissəsinə çevrildiyi üçün artıq vırtual dunyanın dili mətbuat dili sayılır. Ziyalısından tutmuş sıravi vətəndaşadək hər kəs orfoqrafik qaydalara fikir verməlidir. Adətən, sosial şəbəkələrdə post və kommentlər orfoqrafik səhvlərlə yazılır, nədənsə (savadsızlıqdanmı, tələsməkdənmi, hər nədən olsa, düzgün deyil) qrammatik qaydalara əməl etməyi vacib bilmirlər. “Dünyada da bir zamanlar bu müzakirə var idi: “Ənənəvi mediada olan orfoqrafik qaydalara sosial mediada da əməl etmək gərəkdirmi?” Əvvəldən səhv qoyulmuş sual idi. Çünki sözləri düzgün yazmaq hər birimizin illərlə qazandığı, mexaniki vərdişdir. İnsan sosial mediaya keçəndə bu vərdişi necə unuda bilər ki?!” Bu sözləri Yenisabah.az-a açıqlamasında yazıçı-jurnalist Tural Cəfərov bildirib. Tural Cəfərov əlavə edib: “Qadınlara, müxtəlif sosial qruplara, ya başqa din daşıyıcılarına nifrət ruhunda yazılan bütün şərhlərə fikir verin, hamısı orfoqrafik səhvlərlə doludur. Çünki hər nifrətdə bir nadanlıq uyuyur...” Vaxtilə Mirzə Cəlil belə deyirdi: “... Bəli, səhv yazmaq da eyibdir, bu da şəxsin elminin azlığına dəlalət edir. Axı biz sözləri əsas etibarı ilə oxuduğumuz kitablardan öyrənirik. Hər hansı bir sözü səhv yazmağınız da sizin mütaliə vərdişinizin zəif olduğunu və eləcə də mövzu haqqında çox az şey oxuduğunuzu göstərir. Bu intellektual şıltaqlıq deyil, elementar bir qaydadır. “Karrupsiya”, “ateyist”, “kammunist” yazan adamı mən heç cür ciddiyə ala bilmirəm. İmla mətnləri ibtidai siniflərdə yazılır, 5-ci sinifdə buna ehtiyac duyulmur. İndi biz də “dərin mətləblər”-dən danışan adamın 4-cü sinif səviyyəsində belə biliyinin olmadığını gördükdə ona hörmətlə yanaşmalıyıq?!” (5,2).

Dilçilik İnstitutnun elmi işlər üzrə direktor müavini Baba Məhərrəmli qeyd edib ki, sosial şəbəkə nə qədər səmimi və rahat ünsiyyət vasitəsi olsa da, ədəbi dil normalarının pozulması yolverilməzdir (4,1).

**Ədəbiyyat**

1.Ümummilli Lider heydər Əliyev. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman, Bakı şəhəri, 18 iyun 2001-ci il, № 506.

2.İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”. 9 aprel 2013-cü il.

3.“Sosial media nədir?” TurazTu 25.05.2019

4.Sosial şəbəkələrdə ədəbi dil normalarının pozulması yolverilməzdir.Veb.TV.16.02.2018.

5. Sosial şəbəkədə səhv yazılan post və şərhlər: "İzaholunmaz davranışdır". Yeni sabah, 27 oktyabr 2021.

**Xülasə**

**SOSİAL MEDİADA ƏDƏBİ DİL NORMALARININ POZULMASI (ORFOQRAFİK SƏHVLƏR)**

**İradə İsrafil qızı Kərimova**

Məqalədə social medianın dil problemləri araşdırılır. Qeyd edilir ki, social şəbəkələrdə ciddi nöqsanlar, səhvlər və təhriflər daha çox müşahidə edilir. Göstərilir ki, sosial şəbəkələr gündəlik həyatımızın bir hissəsinə çevrilib. Bu gün çox güman, elə bir adam yoxdur ki, sosial şəbəkələrdən istifadə etməsin. Sosial medianın insanlar arasında virtual internet alətləri vasitəsilə sosial ünsiyyət yaratmaq və məlumatları paylaşmaq kimi fəaliyyət göstərməsi hamımıza məlumdur. O, daha əlçatan və veb əsaslı texnologiyaladan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Lakin bəzi sosial məkanlarda çox ciddi dil pozuntularına yol verilir Məqalədə Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 18 iyun tarixində "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" imzaladığı Fərmanına müraciət edilir. Eyni zamanda, məqalədə Respublikamızın Prezidenti Cənab İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramı"-ndan sitat verilir. Qeyd olunur ki, ədəbi dil normalarına əməl olunması üçün ciddi vəzifələr müəyyənləşdirilib. Məqalədə göstərilir ki, sosial mediada bu qədər sərbəstlik dilimizi ağırlaşdırır, saflığına mane olur. Azərbaycan dilini lazımi səviyyədə bilməyən, ədəbi dil normalarına bələd olmayan savadsız insanlar dilimizi korlayır. Bunun qarşısının alınması üçün hər bir ailə, orta məktəb, ali məktəb övladlarımızın ilk növbədə savadlı olmasına şərait yaratmalıdır. Çünki problem həqiqətən də ciddidir. Məqsədimiz kimlərisə tənqid atəşinə tutmaq deyil, dilimizin saflığına mane olan qüsurları aradan qaldırmaqdır.

**Резюме**

**НАРУШЕНИЕ НОРМ ЛИТЕРАТУРНОГО ЯЗЫКА В СОЦИАЛЬНЫХ СЕТЯХ (ОРФОГРАФИЧЕСКИЕ ОШИБКИ)**

**Керимова Ирада Исрафил кызы**

В статье рассматриваются языковые проблемы социальных сетей. Отмечено, что в социальных сетях чаще наблюдаются серьезные недостатки, ошибки и искажения. Показано, что социальные сети стали частью нашей повседневной жизни. Сегодня, наверное, нет человека, который не пользуется социальными сетями. Всем известно, что социальные сети функционируют как способ, с помощью которого люди создают социальные связи и обмениваются информацией через интернет. Он превращает общение в интерактивный диалог, используя более доступные и веб-технологии. Однако в некоторых социальных пространствах допускаются весьма серьезные нарушения речевых норм. В статье говорится об Указе общенационального лидера Гейдара Алиева

«О совершенствовании внедрения государственного языка», подписанном 18 июня 2001 года. В статье также отражена цитата из «Государственной программы», утвержденной Указом Президента нашей Республики господина Ильхама Алиева от 9 апреля 2013 года. Отмечено, что поставлены серьезные задачи по соблюдению норм литературного языка. В статье показано, что чрезмерная свобода в социальных сетях отягощает наш язык и препятствует его чистоте. Безграмотные люди, не владеющие на должном уровне азербайджанским языком и не знакомые с нормами литературного языка, портят наш язык. Отмечается что, чтобы предотвратить это положения, каждая семья, средняя школа и университет должны создать условия, чтобы наши дети в первую очередь были грамотными. Потому что проблема действительно серьезная. Наша цель — не критиковать кого-либо, а устранить недостатки, препятствующие чистоте нашего языка.

**Summary**

**VIOLATION OF LITERARY LANGUAGE NORMS IN SOCIAL MEDIA (SPELLING MISTAKES)**

**Kerimova İrada İsrafil qızı**

The article examines the language problems of social media. It has been noted that social networks are more likely to have serious shortcomings, errors and distortions. It is shown that social networks have become a part of our daily lives. Today, there is probably no person who does not use social networks. It is common knowledge that social media functions as a way for people to create social connections and share information over the internet. It transforms communication into an interactive dialogue by using more accessible and web-based technologies. However, in some social spaces, very serious language violations are allowed.

The article refers to the Decree of the national leader Heydar Aliyev "On improving the implementation of the state language", signed on June 18, 2001.

The article also reflects a quote from the "State Program" approved by the Decree of the President of our Republic Mr. Ilham Aliyev dated April 9, 2013. It is noted that serious tasks have been set to comply with literary language norms.

The article shows that excessive freedom in social networks burdens our language and hinders its purity. It is noted that people spending more time in social spaces away from reading leads to a weakening of speech habits, a violation of language norms, and illiteracy. Illiterate people who do not have a proper command of the Azerbaijani language and are not familiar with the norms of the literary language are ruining our language. It is noted that in order to prevent this situation, every family, high school and university must create conditions so that our children are literate first and foremost. Because the problem is really serious. Our goal is not to criticize anyone, but to eliminate the flaws that hinder the purity of our language.

**Rəyçi: dosent Cavanşir Muradov**